Adımız məfkurəmizdir

19 – 25 aprel 2022-ci il

Türküstan

www.turkustan.az



# Kim Alyaskaya sahibdirsə... O, bütün dünyaya sahibdir

***Alyaska. İlk baxışda Yerin kürəsinin qurtaracağındakı bu ərazinin heç bir geosiyasi əhəmiyyət daşımadığı təəssüratı yaranır. Çünki orada ancaq buzlar və qayalardır. Ora necə faydalı ola bilər?! Yaqin ki, 1 milyon 519 min km? ərazisi olan Alyaskanı 1867-ci ildə 7,2 milyon dollar qızıl pula (1 km?-i 4,74 dollara düşür) Amerikaya satan rus imperatoru II Aleksandr və onun nazirləri də belə düşünürdülər. Ancaq Alyaska ilə bağlı hər şey o qədər də sadə deyil. Hesab olunur ki, bura planetin ən mühüm strateji yerlərindən biridir.***

***Teleqraf.com ABŞ-ın ən şimal və ərazisinə görə ən böyük ştatı, Berinq boğazı vasitəsilə Rusiya ilə dəniz sərhəd olan Alyaskanın geosiyasi önəminə dair hazırladığı məqaləni təqdim edir.***

Məsələn, bu cəsur generala baxın. Onun adı Billi Mitçeldir. O, Birləşmiş Ştatların Hərbi-Hava Qüvvələrinin əsasını qoyan şəxsdir.

1935-ci ildə (ölümündən bir il əvvəl, 56 yaşında) Billi ABŞ Konqresində çıxış edir, o, burada başqa şeylərlə yanaşı deyib:

"Mən inanıram ki, Alyaskanın sahibi olan bütün dünyaya sahib olacaq. Mən hesab edirəm ki, bura dünyanın ən mühüm strateji yeridir".

Dörd ildən sonra İkinci Dünya müharibəsi başladı, daha 4 il sonra (1943-cü ildə) amerikalılar ələcsiz qalaraq Alyaska uğrunda yaponlarla döyüşdülər. Yeri gəlmişkən, onlar həmin döyüşdə qalib gəliblər. Yaponlar darmadağın edildilər və ruhdan düşdülər.

Bəs niyə Alyaska amerikalılar (belə çıxır ki, həm də yaponlar) tərəfindən belə mühüm yer hesab olunur?

## Təkcə resurslar deyil

Əlbəttə, ağla gələn ilk fikir Alyaskanın inanılmaz resurslarıdır. Bunlar qiymətli metallar (xüsusilə, qızıl), almaz, karbohidrogenlər (neft, qaz, daş kömür) və bioloji resurslardır (balıq, mollyusklar, meşələr və sair).

***Bəli, Alyaskada bütün bunlar kifayət qədərdir. Bir dəfə oxumuşdum ki, hazırda Alyaska bir gün ərzində Rusiyanın alqı-satqı əməliyyatı nəticəsində qazandığından daha çox gəlir gətirir. Yeri gəlmişkən, Alyaskada qızıl onun Amerikaya satılması ilə eyni vaxtda aşkar edilib. Region 1896-cı ildə "Klondayka qızıl hərarəti"nin başlanmasınadək zəif inkişaf edib. Ancaq bu "qızıl hərarəti" illərində Alyaskada 1000 tona yaxın qızıl hasil edilib ki, bu da 2020-ci ilin qiymətləri üzrə təxminən 36 milyard dollara uyğun gəlir.***

Bununla belə, böyük miqdarda təbii resurslara bir çox yerlərdə rast gəlinir. Məsələn, Rusiyanın bir hissəsi olan Yakutiyada və ya Mərkəzi Afrikada. Lakin amerikalılar üçün bu ərazi ən mühüm dəniz yollarına nəzarət etmək baxımından önəmlidir.






**_Əgər biz qlobusa baxsaq, görərik ki, ən mühüm dəniz yolları məhz Alyaskanın yanından keçir. Məsələn, ABŞ-dan bu ölkələrə yol məhz Aleut adalarından (Alyaska) keçir: Çin, Yaponiya, Koreya, Rusiya, Vyetnam, İndoneziya, Malayziya və Filippin. Hətta bu ölkələr dünya üzrə dəniz ticarətinin demək olar ki, yarısını təkbaşına yaradırlar. Ancaq bu da hələ hamısı deyil. Məhz Malakka boğazından ABŞ-a ən qısa yol Alyaskadan keçir. Gəlin, bunu adi xəritədə izah edək (qara əyri xətt əslində ən qısa yoldur, çünki Yer kürə şəklindədir). Qısaca desək, Malakka boğazından keçən və ABŞ-a getmək istəyən hər şey Alyaskaya doğru istiqamət götürməlidir..._**

## Asiyadan ABŞ-a qədər

Əgər biz qlobusa baxsaq, görərik ki, ən mühüm dəniz yolları məhz Alyaskanın yanından keçir.

Məsələn, ABŞ-dan bu ölkələrə yol məhz Aleut adalarından (Alyaska) keçir: Çin, Yaponiya, Koreya, Rusiya, Vyetnam, İndoneziya, Malayziya və Filippin.

Hətta bu ölkələr dünya üzrə dəniz ticarətinin demək olar ki, yarısını təkbaşına yaradırlar. Ancaq bu da hələ hamısı deyil. Məhz Malakka boğazından ABŞ-a ən qısa yol Alyaskadan keçir.

Gəlin, bunu adi xəritədə izah edək (qara əyri xətt əslində ən qısa yoldur, çünki Yer kürə şəklindədir)

Qısaca desək, Malakka boğazından keçən və ABŞ-a getmək istəyən hər şey Alyaskaya doğru istiqamət götürməlidir. Və bunlar, məsələn, aşağıdakı ölkələrin gəmiləridir:

***- Hindistan (dünyanın üçüncü iqtisadiyyatı)***

***- Körfəz ölkələri (bəli, onlar üçün Malakka boğazı vasitəsilə ABŞ-ın qərb sahillərinə getmək daha asandır)***

***- Banqladeş, Myanma və ABŞ-a yük daşıyan digər ölkələr (məsələn, Banqladeş dünyanın əsas geyim tikilişi mərkəzlərindən biridir).***

***Bütün bu gəmilər Sakit okeanı keçərək qaçılmaz olaraq Alyaska rayonuna keçir. Ona görə də bu regiondakı hərbi bazalar dünya ticarətinin əhəmiyyətli hissəsinə nəzarət etmək iqtidarındadır. Beləliklə, Alyaska hazırda ABŞ-a məxsusdur, odur ki, onlar özlərini təhlükəsiz hiss edə bilərlər.***

***Amma məsələn, yaponlar Alyaskanı ələ keçirsəydilər, ABŞ-a malların tədarükü ciddi şəkildə çətinləşərdi. Eyni sözlər Rusiyaya da aiddir. Əgər Rusiya indi Alyaskaya sahib olsaydı, bu, Amerikaya təzyiq üçün ciddi "kozır" olardı.***



**Müəllif:
Səxavət Həmid**

Oxu, oxut, abunə ol!